# MİL-MUĞAN İQTİSADİ RAYONUNDA KƏND ƏHALİSİNİN SOSİAL İNKİŞAF PROBLEMLƏRİ

**E.A. Bayramov**
Doktorant
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutu

Məqalədə Mil-Muğan iqtisadi rayonunda kənd əhalisinin əsas sosial problemlərindən biri olan ev təsərrüfatları, onların şəhər və kənd yerləri üzrə paylanması təhlil edilmişdir. İnzibati rayonlar üzrə üzvlərin sayına görə və başçısının cinsinə görə ev təsərrüfatlarının bölgüsü araşdırılmışdır. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, yaşayış evlərinin yarıdan çoxu sovet dövrünün tikintisi olmuş, yeni tikilən evlərin az olması isə əhalinin sosial vəziyyətində problemlərin çoxluğu ilə bağlı olmuşdur. İqtisadi rayonunda kənd əhalisinin sosial problemlərinin həllinə aid təkliflər tövsiyə edilmişdir.

***Açar sözlər:*** *Mil-Muğan iqtisadi rayonu, kənd əhalisi, sosial problem, ev təsərrüfatı*

Mil-Muğan iqtisadi rayonu şimalda Mərkəzi Aran iqtisadi rayonu, qərbdə Qarabağ iqtisadi rayonu, şərqdə Şirvan-Salyan iqtisadi rayonu və İranla qonşudur. Bölgə düz relyefi və isti, quru iqlimi ilə xarakterizə olunur. Ümumi sahəsi 5670 kv.km, əhalisinin sayı 520,2 min nəfər olmaqla ölkə ərazisinin 6,4%-ni və əhalisinin 5,1%-ni təşkil edir. İqtisadi rayon əhalisinin böyük əksəriyyətini kənd əhalisi təşkil edir. Kənd əhalisi sosial problemlərin çox olması ilə şəhər əhalisindən fərqlənirlər. Bu onların aşağı gəlirlərinin olmasından da çox asılıdır, beləki, bunun nəticəsində həyat səviyyəsi və mənəvi inkişafı zəifləyir. Məşğulluq səviyyəsi xarakteri onların asudə vaxt bölgüsünə də müsbət təsir edə bilər. Azərbaycanın əksər kənd yerlərində olduğu kimi bu iqtisadi rayonda da işçi quvvəsi muzdlu işlərdə çox az maaşla kənd təsərrüfatı sahələrində işlədilir. Mil-Muğan iqtisadi rayonunda kənd əhalisinin mal və

xidmətlərə şəhərlərdə və ölkənin digər yerlərində olduğu kimi tələbatları var, lakin onların əldə etmə üsulları fərqli ola bilər. Ev təsərrüfatına daha çox diqqət yetirən ailələr adətən əl əməyi və təbii istehlakla məşğul olurlar. Müxtəlif amillər, o cümlədən vərdişlər, elmi-texniki tərəqqi, innovativ fəaliyyətlər ümumi inkişafa kömək edir və mənəvi təsir göstərir. Kənd yerlərində təhsil, səhiyyə və mədəniyyət tələbləri şəhərlər səviyyəsində deyildir. Lakin diqqətçəkən cəhətlərdən biri odur ki, kənd əhalisinin mənzil və əşyalarla təmin olunması şəhər yerlərindən heç də aşağı deyildir. Kənd əhalisinin böyük hissəsi qarışıq əmək fəaliyyəti ilə məşğuldur.

Kənd yerlərində peşəkar əmək ilk növbədə fəhlələr, mexaniklər, sürücülər və xidmət sektorunda çalışan işçilərdən ibarətdir. Bazar iqtisadiyyatı hökm sürdükcə ticarət və restoran sənayesi kənd sakinləri üçün vacib məşğulluq sahələrinə çevrilir. Kənd yerlərində əmək təcrübələrinin təkamülü və tərəqqisi yeni sahələrin və iş vərdişlərinin yaranmasına səbəb olur. Əmək fəaliyyəti cari dövrdə qazanılmış əmək haqqı ilə gələcəkdə alınan pensiyalar arasındakı gəlir fərqinə də təsir göstərir. Kənd sakinləri arasında gəlir fərqləri onların fəaliyyət səviyyəsi və onlar üçün yaradılmış şəraitlə bağlıdır. Kənd məskunlaşması ilə bağlı məsələlərin həlli dövlətdən ayrı-ayrı kəndlərdə əmək və sosial şəraitə üstünlük verən siyasətlər qəbul etməyi tələb edir.

Cədvəl 1

İqtisadi rayonda ev təsərrüfatlarının şəhər və kənd yerləri üzrə paylanması (2019)

| | | Ev təsərrüfatların sayı | | | O cümlədən fərdi yaşayış evi | | |
|---|---|---|---|---|---|---|---|
| | | Cəm | Şəhər | Kənd | Cəm | Şəhər | Kənd |
| Beyləqan | say | 22940 | 9731 | 13209 | 20640 | 8478 | 12162 |
| | min n. | 98013 | 40465 | 57548 | 89779 | 35938 | 53841 |
| İmişli | say | 22508 | 7533 | 14975 | 21378 | 6712 | 14666 |
| | min n. | 127565 | 39643 | 87922 | 122852 | 36236 | 86616 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Saatlı | say | 21082 | 4055 | 17027 | 19779 | 3782 | 15997 |
| | min n. | 106528 | 19613 | 86915 | 101358 | 18560 | 82798 |
| Sabirabad | say | 33838 | 6278 | 27560 | 32540 | 5373 | 27167 |
| | min n. | 173210 | 30483 | 142727 | 167688 | 26929 | 140759 |
| İqtisadi rayon | say | 100368 | 27567 | 72771 | 94337 | 24345 | 69992 |
| | min n. | 505316 | 130204 | 375112 | 481677 | 117663 | 364014 |

Mənbə: Azərbaycanda əhalinin siyahıyaalınması 2019, XIX cild. Bakı: 2022, s. 294-296.

Kənd əhalisinin üzləşdiyi miqrasiya məsələlərinə infrastrukturun inkişafı, eləcə də insanların istehlak vərdişləri kimi xarici amillər təsir göstərir. Kənd yerlərində ortaq resursların mövcudluğunun genişləndirilməsi kənd əhalisinin miqrasiyasının və qütbləşməsinin qarşısını almağa kömək edə bilər. Müasir vəziyyət Mil-Muğan iqtisadi rayonunda sənaye və energetikanın inkişafına, o cümlədən kənd təsərrüfatının dəstəklənməsinə yönəlmiş dövlət siyasəti ilə sıx bağlıdır. Bu siyasətlərə kiçik kreditlərə çıxışın asanlaşdırılması və məqsədyönlü sahibkarlığın təşviqi, eləcə də kənd yerlərində yerli və ixracyönümlü istehsal imkanlarının inkişafı kimi tədbirlər daxildir. Coğrafi mövqelərinə və tranzit məntəqəsi roluna görə, kənd icmaları icarə gəlirləri hesabına yerli iqtisadiyyata töhfə verə bilər və daha sonra öz icmalarının inkişafını dəstəkləmək üçün istifadə edilə bilər. Nəhayət, kənd əhalisinin məskunlaşmasına birbaşa və dolayısı ilə təsir edən ən mühüm amillərdən biri sosial rifahdır.

İqtisadi rayonda ev təsərrüfatlarının şəhər və kənd yerləri üzrə paylanmasının təhlili göstərir ki, 27,5% şəhər və 72,5% kənd yerlərində yerləşir, həmçinin fərdi yaşayış evlərinə gəldikdə onların daha az hissəsi yəni 25,8% şəhər yerlərinin payına düşür. İnzibati rayonlar arasında bu bölgüdə şəhər yerlərinin payı çox olan Beyləqan (42,4%) və İmişli (33,5%) rayonlarıdır.

Cədvəl 2

İnzibati rayonlar üzrə üzvlərin sayına görə ev təsərrüfatlarının bölgüsü (2019)

| Üzvlərin sayı | Üzvlərin sayına görə ev təsərrüfatlarının bölgüsü | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Beyləqan | % | İmişli | % | Saatlı | % | Sabirabad | % |
| 1 üzvü olan | 1528 | 6,6 | 763 | 3,4 | 1105 | 5,2 | 1252 | 3,7 |
| 2 üzvü olan | 2473 | 10,8 | 1204 | 5,4 | 1461 | 6,9 | 2053 | 6,1 |
| 3 üzvü olan | 3462 | 15,1 | 2183 | 9,7 | 2418 | 11,5 | 3969 | 11,7 |
| 4 üzvü olan | 6470 | 28,2 | 4803 | 21,3 | 5268 | 25,0 | 7752 | 22,9 |
| 5 üzvü olan | 4221 | 18,4 | 4080 | 18,1 | 3851 | 18,3 | 6711 | 19,8 |
| 6 üzvü olan | 2294 | 10,0 | 3077 | 13,7 | 2586 | 12,3 | 4927 | 14,6 |
| 7 üzvü olan | 1230 | 5,4 | 1863 | 8,3 | 1536 | 7,3 | 2910 | 8,6 |
| 8 üzvü olan | 535 | 2,3 | 1312 | 5,8 | 844 | 4,0 | 1483 | 4,4 |
| 9 üzvü olan | 274 | 1,2 | 968 | 4,3 | 611 | 2,9 | 1008 | 3,0 |
| 10 və çox | 453 | 2,0 | 2255 | 10,0 | 1402 | 6,6 | 1773 | 5,2 |
| Cəm | 22940 | 100 | 22508 | 100 | 21082 | 100 | 33838 | 100 |

Mənbə: Azərbaycanda əhalinin siyahıyaalınması 2019. Bakı-2022, XIX cild, (182, 217-222 s.).

Digər rayonlarda şəhər yerləri aşağı göstərici ilə fərqlənirlər. Təsərrüfatların orta böyüklüyü daha böyük göstəricisinə görə İmişli rayonu (5,7), kənd (5,9) və şəhər (5,3) yerlərində, aşağı göstəricisinə görə isə Beyləqan rayonu (4,3) fərqlənmişdir.

İnzibati rayonlar üzrə üzvlərin sayına görə ev təsərrüfatlarının bölgüsündə isə rayonların hamısında 4-5 üzvü olan üstün olsada, lakin İmişli və Sabirabad rayonlarında 5-6 üzvü olan ev təsərrüfatlarının payı çoxdur. 10 və daha çox üzvu olan ev təsərrüfatlarının daha çox payı İmişli (10%) və Saatlı (6,6%) rayonlarıdır. Belə təsərrüfatlarda bir neçə nəsilli ailələr yaşayır. İnzibati rayonlar üzrə 1 və 2 üzvü olan ev təsərrüfatlarının sayı və payı çox olanlar Beyləqan (17,4%) və Saatlı (12,1%) rayonlarıdır.

Cədvəl 3

İnzibati rayonlar üzrə başçısının cinsinə görə ev təsərrüfatlarının bölgüsü (2019)

| | Başçısının cinsinə görə ev təsərrüfatlarının bölgüsü | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Beyləqan | % | İmişli | % | Saatlı | % | Sabirabad | % |
| Cəmi | 22940 | 100 | 22508 | 100 | 21082 | 100 | 33838 | 100 |
| Başçısı kişi | 18282 | 79,7 | 17514 | 77,8 | 16538 | 78,5 | 26099 | 77,1 |
| Başçısı qadın | 4658 | 20,3 | 4994 | 22,2 | 4544 | 21,5 | 7748 | 22,9 |
| 1 n. ibarət | 1528 | 6,6 | 763 | 3,4 | 1105 | 5,2 | 1252 | 3,7 |
| ər və arvad | 1374 | 6,0 | 599 | 2,7 | 742 | 3,5 | 1029 | 3,1 |
| Tək valideyn və uşaqlar | 1973 | 8,6 | 1410 | 6,3 | 1484 | 7,0 | 2250 | 6,7 |
| ər-arvad və uşaq | 10522 | 45,9 | 8238 | 36,6 | 8605 | 40,8 | 13267 | 39,3 |
| Üç və çox nəsil | 5509 | 24,0 | 8599 | 38,2 | 7239 | 34,3 | 12336 | 36,5 |

Mənbə: Azərbaycanda əhalinin siyahıyaalınması 2019. Bakı-2022, XVIII cild, (73, 85-87 s.).

Başçısının cinsinə görə ev təsərrüfatlarının bölgüsü təhlili göstərir ki, rayonların hamısında başçısı kişi olan ev təsərrüfatları 77-79% təşkil edir. Ər-arvad və uşaqlardan ibarət olan ev təsərrüfatları sayı və payı çox olan rayonlar Beyləqan (45,9%) və Saatlı (40,8%), üç və çox nəsildən ibarət olan ev təsərrüfatları çoxluğu ilə İmişli (38,2%) və Sabirabad (36,5%) rayonları fərqlənmişlər.

Cədvəl 4

İnzibati rayonlar üzrə yaşayış yerinin tikildiyi ilə görə ev təsərrüfatlarının bölgüsü (2019)

| Tikilmə vaxtı | Yaşayış yerinin tikildiyi ilə görə ev təsərrüfatlarının bölgüsü | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Beyləqan | % | İmişli | % | Saatlı | % | Sabirabad | % |
| 1919-cu ilə | 215 | 0,9 | 387 | 1,7 | 417 | 2,0 | 681 | 2,0 |
| 1919-1945 | 150 | 0,6 | 72 | 0,3 | 178 | 0,8 | 233 | 0,7 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 1946-1960 | 835 | 3,6 | 873 | 3,9 | 892 | 4,2 | 1887 | 5,6 |
| 1961-1970 | 2747 | 12,0 | 2649 | 11,8 | 2655 | 12,6 | 4436 | 13,1 |
| 1971-1980 | 4604 | 20,1 | 4286 | 19,0 | 3423 | 16,2 | 5566 | 16,5 |
| 1981-1990 | 5404 | 23,6 | 4864 | 21,6 | 5464 | 25,9 | 7788 | 23,0 |
| 1991-2000 | 3361 | 14,7 | 3191 | 14,2 | 3436 | 16,3 | 4659 | 13,8 |
| 2001-2010 | 3032 | 13,2 | 3227 | 14,4 | 2636 | 12,6 | 4339 | 12,8 |
| 2011-2015 | 1694 | 7,4 | 2232 | 9,9 | 1488 | 7,1 | 3193 | 9,4 |
| 2016-cı ildən | 898 | 3,9 | 727 | 3,2 | 493 | 2,3 | 1056 | 3,1 |
| Müstəqillik dövrü | 8985 | 39,2 | 9377 | 41,7 | 8053 | 38,3 | 13247 | 39,1 |
| Cəmi | 22940 | 100 | 22508 | 100 | 21082 | 100 | 33838 | 100 |

Mənbə: Azərbaycanda əhalinin siyahıyaalınması 2019. Bakı-2022, XIX cild, (608-610 s.).

İnzibati rayonlar üzrə yaşayış yerinin tikildiyi ilə görə ev təsərrüfatlarının bölgüsündən aydın olur ki, evlərin çox hissəsi yəni 40% sovet dövrünün 1971-1990-cı illəri ərzində tikilib, müstəqillik döründə də bu qədər ev tikilmiş, xüsusilə daha çox ev tikintisi 1995-2015-ci illəri əhatə etmişdir. Ən az tikinti 2016-2021-ci illərdə olmuş, lakin rayonlar arasında Beyləqan rayonu nisbətən tikintinin çox olması ilə seçilmişdir. Tədqiqatın nəticəsindən aydın olur ki, iqtisadi rayonda sosial amilin əsas funksiyalından birini təşkil edən ev təsərrüfatlarının bölgüsündə və təminatında çox sayda problemlər mövcuddur. Ən mühüm problem üç və daha çox nəsildən ibarət olan təsərüfatlardır ki, xüsusilə İmişli və Sabirabad rayonlarında onlar üstünlük təşkil edirlər, yəni bu rayonlarda yoxsulluq səviyyəsi ölkə göstəricisindən çox aşağıdır. İkinci problem kənd əhalisinə aid evlərin yarıdan çoxu sovet dövründə tikildiyi üçün müasir tələblərə cavab vermirlər. Bu səbəbdən yeni evlərin tikilməsi üçün kənd əhalisinə dövlət tərəfindən güzəştlər edilməlidir. Digər tərəfdən əhalinin səhiyyə, təhsil və sosial infrastrukturunun yaxşılaşdırılması insanları kənd yerlərində qalmağa həvəsləndirən şərait yarada bilər.

Yoxsulluğun aradan qaldırılması və orta gəlirli ailələrin artımının təşviqi də kənd əhalisinin məşğulluq problemləri ilə bağlıdır. Sahibkarlığı dəstəkləmək, sosial müdafiəni təmin etmək, əsas sənaye və infrastrukturu tənzimləmək yolu ilə kənd yerlərində məskunlaşmanın yenidən qurulması üçün dövlət siyasəti əsas rol oynamalıdır.

## Ədəbiyyat


1. Azərbaycanda əhalinin siyahıyaalınması 2019, XIX cild. Bakı: 2022. 645 s.
2. Azərbaycanda əhalinin siyahıyaalınması 2019, XVIII cild. Bakı: 2022, 924 s. 3.
3. Azərbaycan Respublikasının Coğrafiyası "Regional Coğrafiya" III cild. Bakı: 2016.
4. Bədəlov E.S. Aran iqtisadi rayonunun kənd məskunlaşması //Azərbaycan Respublikası kəndlərin demoqrafik inkişafı və kənd əhalisinin məskunlaşması problemləri. Bakı: Optimist MMC, 2021. 552 s.
5. Eminov Z.N. Azərbaycan əhalisi. Bakı: 2005, 558 s.
6. Tahirova H.M. Əhalinin miqrasiyası // Azərbaycan Respublikası kəndlərin demoqrafik inkişafı və kənd əhalisinin məskunlaşması problemləri. Bakı: Optimist MMC, 2021. 552 s.


## SOCIAL DEVELOPMENT PROBLEMS OF VILLAGE POPULATION IN MIL-MUGAN ECONOMIC DISTRICT


In the article, households, which are one of the main social problems of the rural population in Mil-Mugan economic district, and their distribution in urban and rural areas were analyzed. The distribution of households according to the number of members and the gender of the head of the administrative regions was investigated. As a result of the research, it was determined that more than half of the residential houses were built during the Soviet era, and the small number of newly built houses was related to the number of problems in the social situation of the population. Proposals related to the solution of social problems of the rural population in the economic district were recommended.



*Keywords: Mil-Mugan economic region, rural population, social problem, household.*